# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 468** **Bakı şəhəri, 30 noyabr 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 3 aprel tarixli 94 nömrəli, "Diridoğulmanın beynəlxalq meyarları"nın tətbiq edilməsi haqqında" 2014-cü il 21 oktyabr tarixli 340 nömrəli, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2015-ci il 28 aprel tarixli 122 nömrəli, "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli və "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 2 avqust tarixli 289 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 440, № 11, maddə 1513; 2015, № 5, maddə 665; 2016, № 3, maddə 615, № 5, maddə 955, № 9, maddə 1563, № 10, maddə 1733; 2017, № 1, maddə 123, № 8, maddələr 1616, 1623, № 9, maddə 1758; 2018, № 2, maddə 343, № 3, maddə 622, № 4, maddə 809, № 5, maddə 1126, № 8, maddə 1817, № 10, maddə 2162, № 11, maddə 2439; 2019, № 3, maddə 522, № 12, maddə 2101; 2020, № 2, maddə 206) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın 20-1.11-ci bəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**2.** "Diridoğulmanın beynəlxalq meyarları"nın tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 oktyabr tarixli 340 nömrəli Qərarının (Azərbaycan Respubli-kasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1310) 1-ci hissəsində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik-lərin edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 610) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası"nın 2.1-ci bəndində "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözləri "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1225; 2016, № 7, maddə 1343, № 11, maddə 1977; 2017, № 12 (II kitab), maddə 2552; 2018, № 2, maddə 354, № 12 (II kitab), maddə 2730; 2019, № 5, maddə 983, № 7, maddələr 1318, 1330; 2020, № 5, maddə 633) ilə təsdiq edilmiş "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"na 7 nömrəli əlavə - "Müavinət, təqaüd və kompensa-siyanın təyin edilməsi üçün tələb olunan sənədlərin siyahısı"nın 2.18.1-ci yarımbəndində "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Elmi Tədqiqat" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin V.Y.Axundov adına Elmi-Tədqiqat" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1429; 2017, № 4, maddə 674; 2018, № 4, maddə 812; 2019, № 6, maddə 1158) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın 5.1.5-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci cümlədə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin" sözləri "dövlət tibb" sözləri ilə əvəz edilsin;

5.2. ikinci cümlədə "səhiyyə" sözü "dövlət tibb" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti 2020.- 3 dekabr.- S.8.